# TÜRKAY

aylıq ədəbiyyat dərgisi



1/12/2023

## BU SAYIMIZDA

Səltənət Əliyeva / Sən / 3
Rana İslam Değirmenci / Gün Doğmadan Ay Balam -3- / 4
İnci Okumuş / Bana kaldı / 6
Mirajan Kamçibekovna / Kelebek Hissi / 7
Banu Musayeva / Sən / 8
Vüsalə Vətənxan Mehri / İçmişəm / 9
Mərziyyə Nəcəfova / Lütviyyə Əsgərzadə Poeziyasında Sözün Fəlsəfi Qüdrəti / 10
Əzizə Ağahüseynqızı / Salam Şusam / 14
Səlbi Baxış / Ey Ana Vətən / 15
Elnaz Kərimilər / Dəsmal Satan Balaca Oğlan / 16
Nesrin Sipahi Kıratlı / Seni Dinledim / 16
Ramilə Əliyeva / Vətən / 17
Sona İntizar / Lazım Mənə / 18
Lütviyyə Əsgərzadə / Sözün Tərs Üzünü Naxışlayan Şairə Təranə Arifqızı / 19
Zəhra Fərdi Muğanlu / Alovlu Sevgi / 21
Mələk İsmayıl / Vətən / 22
Zərəngiz Dəmirçi Qayalı / Salam Şuşam / 23
İlahə İbrahimifərd / Kənd / 24

**TÜRKAY**
**aylıq ədəbiyyat dərgisi**
**Baş redaktor** Lütviyyə Əsgərzadə
**Məsul katib** Tayyib Atmaca **Sosial yayına məsul** Sona İntizar
**Üz qabığı rəsmi** Ülviyyə Həmzəyeva
**E mail** turkayedebiyat@gmail.com
**Say 12 Dekabr 2023**

## Səltənət Əliyeva

# Sən

Yazmaq istəyirəm...
Adından başqa heç nə yazmır
Qələmim.
Üzünə, gözünə
Boyuna, saçına çevrilir
Sözlərim.
Yenə ovsunlayır məni.
Boylanıram sən sarı
Alıb götürürsən məni...

Bir, iki, üç.....
Neçə saat keçdi?
Elə bil axı
Saat yox,
Günlər keçdi burda...
Bilmirəm özüm də...

Bəlkə, bir söz eşdəm deyə
Gözlərim dikilir dodaqlarına
Yox, yox, yox...
Bircə adın səslənir burda.
İlk sözüm
SƏN.
Son sözüm
SƏN.
Bir də
Siqaretin tüstülənir
Fikrin də çox uzaqlarda
Heç məni görmür elə bil.

Beləcə, bir tablosan mənim üçün
Seyrinə doymadıöğım,
Sehrinə düşdüyüm
Hər baxışında
Yenidən
Kəşf etdiyim
Ən gözəl tablo...

## Rana İslam Değirmenci

# Gün Doğmadan Ay Balam -3-

Doğan'ın evden gitmesinin üzerinden üç kocaman ay geçmişti; sanki kış mevsimi gibi… Ferhad Bey kalktı, abdestini aldı. Hanımının ölümünden beri yatağa girerken ve yataktan kalkınca hiç aksatmadan yerine getirdiği ilk görevi abdest almaktı zaten, Bey'in… Aklı, aylardır arka bahçedeki gençlik fidanlığındaydı. Abdestini aldığı gibi bahçeye baktı. Bomboş fidanlığa bakarken bir yandan da düşünüyordu. Yoksa hata mı yapmıştı, Doğan'ı göndermekle? Fakat ne hisleri ne de rüyaları yanlış yaptığını söylemiyordu ona… "İyi ya! O zaman, neden şu çiçekler hâlâ açmıyordu ki?" Vakit kemâle ermiş olmalıydı…

Doğan'ı göndermişti; göndermişti delikanlıyı akıncı birliğine yaman bir akıncı olsun diye… Doğan günün gerçeği gibi emindi; yiğit ve salih bir akıncı olacaktı Doğan! Üstelik Birlikte Doğan'a özel ve emin bir görev vereceklerdi. Doğan'ın kendi elleriyle yetiştirdiği  o özel haber güvercinleri, çok iş görecekti şu Serhad Boylarında…

Bütün bunları çok çok iyi biliyordu Ferhad Bey… Yine de her sabah, burkulan yüreğiyle "Oğlum Doğan!" derdi içinden: "Hayatta, tek istediğim şey, bu!.. Ama bunu, senin herkesten evvel ve her şeyden çok istemen lazım… Sen istemezsen zorla olmaz ki?" Ve devam ederdi yürekli Bey: "Ben, bahçeye bakacağım yürekten. Dualarım sizinle… Elime verilen bu…Elimden, gayrısı gelmez ki?.."

İşte o gün, gün boyunca Şîve Naz'a da Ferhad Bey'e de çok, çok sıkıntılı geçti. O kadar sıkıntılı bir gün olmasına karşılık "bu canların sıkıntısına" Zülâl Kalfa hiç şaşırmamış, hiç hayret etmemişti… Bugün, "hayretlik" bir gündü…

Bu hayret gününün tüm anlarını, bütün sıkıntısına rağmen cumbalı penceresinin önünde geçirdi Şîve Naz… Bir ara uyukladı, uykusunda annesini gördü. Rüyasında annesinin elinde bir şey vardı; tam olarak ne olduğu seçilmiyordu kadının elindeki… Bir taraftan dolu elini ufuğa doğru uzatıyor, bir taraftan da "Ay Bala, Ay Bala! Semaya bak, semaya bak!" diye derinden inliyordu annesi… Rüyadan uyandı Ay Bala; yüreği patlayacaktı sanki!

O sıkıntılı günün sonunda, geceden sabaha uzanırlarken inanılmaz bir şey oldu. Cumbalı pencereye sabahın ilk ışıklarıyla bir güvercin konmuştu. Gözlerini ovuşturdu Nazlı kız, "Hâlâ rüyada mıyım?" diye… Hayır! Penceresinin kenarında bir güvercin ona bakıyordu… Birkaç zaman bakıştılar… Biraz daha dikkatle baktı kız; tanıdı… Tanıdı işte, güvercini… Kuşun o küçük başında, ince bir taç halinde mor tüyler vardı. Daha da önemlisi; kuş pencereye konar konmaz, bir adımını özenle öne attı ve başını hafifçe sola eğdi… Bu, bu Doğan'dan gelen bir güvercindi!.. Güvercine bu duruşu, ancak Doğan öğretebilirdi. Biliyordu kız!.. Beraber defalarca denemişlerdi; kuşa bu selamı öğretmek için… Ve bir gün Doğan, sabırlı yüreğiyle bu duruşu kuşa öğretmeyi başarmıştı…

Güvercinin ayağına bağlı kağıt parçasını fark etmekte gecikmedi Ay Bala!.. Kağıda elini uzattığı sıra, dönüp bahçeye baktı bir soluk… Doğanla ektikleri tohumların bulunduğu fidanlığın yarısı –ama sadece yarısı- sarı sarı gonca güllerle kaplanmıştı… Gördüklerine inanamadı Ay Bala:

"Aman Allah'ım! Bu bir düş olmalı. Hem biz bu bahçeye lale soğanı ekmemiş miydik? Babam bizi kandırmış…" diye mırıldandı yüreği titreyerek… devam etti sevinçle… "Üstelik daha dün sabah, bir karış yeşillik bile yoktu fidanlıkta?.. Şimdi bahçemizin yarısı sarı sarı gonca güller!.."

Bahçeden, yeniden kuşun ayağına mor ibrişimle bağlanmış kağıda döndü Şîve Naz. Kalbi küt küt atıyordu o anda… Kağıdı titreyen ellerine aldı ve açtı. Emindi artık! Bu yazı, bu sülûs yazı Doğan'ındı. Yalnızca Doğan, "elif" ve "tı"ları bu şekilde yazardı; "hemze"leri de…  Doğan'ın yazısı bile o kadar mükemmeldi ki kimselere benzemiyordu o yazı… Satırları okumaya başladı. Yazıyı okurken kalbi duracak gibiydi kızın.

Her satırı okuduğunda yüzünün pembe pembe açtığını yüreğinin aynasından görüyordu kız… Ama henüz görmediği, bilmediği şey vardı: O pembe pembe açtıkça bahçedeki sarı sarı gonca güller de pembeleşiyordu. Yalnızca bahçedekiler mi? O nazenin ellerin gergef gergef her kumaşa işlediği tüm küçük sarı goncalarla lalerin içine büyük bir özenle gizlediği sarı gonca güller pembeye dönmüştü…

Selamlık'ın penceresinden seherin ilk ışıklarıyla fidanlığa bakan Ay Bala'nın babası, kalbinin şiddetinden yatağına çöktü birden… O, geceler boyu gördüğü düşü, artık gözü açıkken, gün ışığında bile ayan beyan görmeye başlamıştı zâhir…

Oturduğu yerden bağırıyordu Ferhad (bağırdığının hiç de farkında olmadan):

"Elinden aldığımı, ellerine verdim ben! Gök, şahit!"

Ve işte, yıllardan beri bu sabah ilk kez, Bey'in rü-

yasında Ay Sema'sı ona yürekten gülümsemişti. O yalnızca yüreklerin duyduğu büyük çığlığa ayakları ve elleri sular içinde olan Zülâl Kalfa koşarak geldi. Kendi ıslanmışlığına aldırmadan, Bey'ini o halde görünce öyle bir hakîkatle gülümsedi ki; Bey, aynı gülüşü düşünde de görmüştü… Ama Zülâl, sırılsıklam gerçekti…

Bey, o gülüşten sonra kendine geldi. Ayağa kalktı. Pencereden dışarı, bütün gücüyle baktı: Fidanlığın yarısı "pembe pembe gonca güllerle" doluydu. "Şükür Yâ Rabbim! Bugüne şükür…" dedi. İçi içine sığmaz olmuştu, odanın kapısında duran Zülâl'i pencereye çağırdı. Zülâl bir gayretle geldi. Selamlık'ın penceresinden bahçedeki pembe güllere baktı. O güne hayret ki Kalfa'nın hayreti hiç yoktu. Hatta Zülâl'in gözlerine her güne yetecek bollukta, kuvvetli bir gayret gelmişti.

Selamlıktakiler, ufukla birleşen pembeliğe hayret ve gayretle karışık bakadursun; Ay Bala, Doğan'dan gelen şu dörtlüğü okuyordu: (Dörtlük okunurken güvercin büyük bir edeple durduğu yerden nazı ve sazı dinliyordu…)

"Perîşân-hâlin oldum sormadın hâl-i perîşânım
Gamından derde düştüm kılmadın tedbîr-i dermânım
Ne dersin rüzgârım böyle mi geçsin güzel hânım
Gözüm cânım efendim sevdiğim devletlü sultânım"

Hemen, hiç vakit geçirmeden, nazlı nazlı süzülen sülûs yazısıyla cevabını yazdı Naz Kız… Onun yazısında "kaf" ve "şın" diğerlerinden ayrı bir seçilirdi. Elbette "sükûn"ları da… Güvercin, huşû ile cevabı bekliyordu; Naz kızın el verdiği an, mor taçlı kuş hiç yorulmamacasına ufka uçacaktı…

Cevap bir su gibi yazıldı:

"Esîr-i dâm-ı aşkın olalı senden vefâ görmen
Seni her kande görsen ehl-i derde âşinâ görmen
Vefâ vü âşnâlık resmini senden revâ görmen
Gözüm cânım efendim sevdiğim devletlü sultânım"

Pembe goncalar bir süre her bir yanda kendi kendilerine nazla salındılar. Derler ki sınır boyundaki o hülyâlı ve yiğit mendilde bile… Hatta yavaştan yavaştan ve büyük sessizlikle goncadan güle durmaya başladılar. Ama ne kadar gayret edilse de bahçenin diğer yarısı hâlâ boştu. Günler günleri, geceler geceleri kovaladı; pembeliğiyle kalan Şîve Naz, neredeyse Doğan'dan umudunu hepten kesecekti…

Bir zaman sonra cüssesi küçük yüreği kocaman o can güvercin, pencereyi yeniden tıklattı. Hatta, Bala'ya öyle geldi ki yalnızca kızın duyabileceği sesle "Naz kız!" diye seslendi…

Doğan, bu sesli ve içli namesinde diyordu ki:

"Değer her dem vefâsız çarh yayından bana bin ok
Kime şerh eyleyem kim mihnet ü endûh ü derdim çok
Sana kaldı mürüvvet senden özge hîç kimsem yok
Gözüm cânım efendim sevdiğim devletlü sultânım"

Güvercin, sessizliğin içine gizlediği sesiyle pencereyi tıklatıp da Şîve Naz Doğan'ından gelen nameyi okurken fidanlıktaki güller "nâr" rengine döndü. Ufukla birleşen o ikinci namenin pencereye ulaştığı gün, fidanlığın diğer yarısında yalnızca elif misali yeşil dallar görüldü…

Ferhad Bey artık, ufuktaki günleri ve fidanlığı seyrettiği pencereden "Allah'ın birliğine hamdediyor; O'nun göstereceği güne sabrediyordu. "Ufuğun bu kızıllığı, mutlak güne işaretti" çünkü, biliyordu!.. Zülâl Kalfa sabrı öğreneli ise çok çok zaman olmuştu. Ferhad Bey'in yıllardır süren rüyası, Ferhad Bey'e bir tatlı huzur veriyordu, bu ufuğu gördükten gayrı…

Kaç seher geçti? Bilinmez… Güvercin, başını uzattı pencereden. Başındaki mor taç, ışıl ışıl parlıyordu. Durdu yine pencerenin aynı yerinde, güzel sebebin kuşu… "Neyi bildiğini bilmese de güzel sebep olduğunu biliyordu ya, şuncağız Güvercin!" Görevi ulvîydi… İşte, duruşunda bu bilgi, bu asalet vardı kuşun…

Şîve Naz, ufuk çizgisinden gelen nameyi okudu hiç ama hiç nazlanmadan:

"Gözümden dem-be-dem bağrım ezüp yaşım gibi gitme
Seni terketmezem çün ben beni sen dahi terk etme
İgen çok zâlim olma ben gibi mazlûmu incitme
Gözüm cânım efendim sevdiğim devletlü sultânım"

Gün, bugün çok çabuk ağarmıştı. Belli ki tatlı bir telaşı vardı, günün bugün… Ne zaman güneş çıkmıştı da gök masmavi kesilmişti? Kimseler anlamadı… Yeşil eliflerin üzerine hangi demde mor laleler tahtını kurmuştu?..

Bu gece gözünü hiç kırpmamıştı Şîve Naz… Dışarıdaki bu olağanüstü güzelliğe rağmen Ay parçası kız, kendi rüyasındaki gününü görememişti henüz… Ya da gün, gün be gün karşısındaydı… Bu incecik çizgiyi ayırmak güçtü… Uyanıkken gördüğü rüyada karşısında annesi duruyordu, elinde mor laleyi tutan annesinin üzerinde kıpkırmızı bir elbise vardı…

İşte bu gecenin sabahında sema masmavi olmuştu; güllerin rengi "nâr"dı; eliflerin üstü mor laleydi… Gün, bu manzaraya şahitti… Tek şey tam seçilemiyordu henüz; mor lalelerin ortasındaki o renk…

İnci Okumuş

# Bana Kaldı

Açsın diye bekledim vefa gülünü
Soldu gülistan dikeni bana kaldı
Rüzgârlar savurdu bir bir günlerimi
Verdi hasreti çekeni bana kaldı

Sakladım yağmurları öptüm mecali
Çaldı baharımı güzü bana kaldı
Çekip kucakladım ırmağın yurdunu
Sevdası, sitemi, sözü bana kaldı

Gülümsedim papatya serinliğinde
Geçti yollarımı izi bana kaldı
Şairdim şiir biçtim güzelliğinde
Sonsuz sevda mıydı nazı bana kaldı

Döndüm her gün göğe çevirdim başımı
Düşürdü takatim derdi bana kaldı
Sustum rüzgâra dağ birikti içimde
Koştu serabın inci mercana kaldı

Mirajan Kamçibekovna

# Kelebek Hissi

Dört duvar göğsümü çevrelediğinde
Boğazım bana acımadı, kimse.
Adressiz yerlerden beklemek istiyorum,
İzlerimde telif hakkı yok.
Tek rahatlatıcı hayellerim
Özlemim uçup gediyor.
Amma kalbim kırıldı
Kulem kalbimde yanıyor.
Hırsızların endişelerinin soğuk rüzgarı
Beni aşkla mutlu et.
Kalbimi nasıl alçaltırım
Parla, pişmanlık duyma.
Bu gün aşktan nefret ettim
Kelebeklerin rüyalarında uçan şarkıda.
Kırılmayın sevdiklerim.
Ta ki parlayıp asil bir şarkı olana kadar.

Banu Musayeva

# Sən

Bir cüt kirpiyimlə götürüm səni,
Gözümdən qəlbinə ötürüm səni,
Orda ləl eyləyim, itirum səni,
Tapanı mən olum, axtaranı sən.

Kimsələr duymasın sənin səsini,
İçimə çəkmişəm od nəfəsimi,
Odunla alışsın yansın ürəyim,
Üşüyən mən olum, od alanım sən!

Gözlərin can alır, candan şirinim,
Atadan, anadan, baldan şirinim,
Ömürdən şirinim, dildən şirinim,
Balın mən olum,baltutanım sən!

Alması mən olum,dilimi də sən,
Naxışı mən olum ilməsin də sən,
Baxışı mən olum, göz nurumda sən,
Nuruna boyanım, göz nurum ol sən!

Banu bu sevdanın bağbanı olar,
Əbədi saf eşqin mehmanı olar,
Sevda dünyasının cananı olar,
Baxçanda gül olum,bağbanım ol sən!

## Vüsalə Vətənxan Mehri

# İçmişəm

Yoxdu çarəm ey könül, əlbət bu gündən içmişəm,
Aşiqəm, meyxanədən xəlvət bu gündən içmişəm.

Çün nigarım yox, könül gülşəndə bülbül binəva,
Hali rüsvayəm, edib işrət bu gündən içmişəm.

Saqiya, meydir bu badəm içrə, ya şərbətmidir?
Süzdügün dəmdən dilim şərbət bu gündən içmişəm.

"Mərifətdən nəsnə qıl" söylər Nəsimi adəta,
Əl-həzər ondan, edib adət bu gündən içmişəm.

Olmuşam nəfsə məlaib, ey cəmaət, siz məni,
Nola zəhm ilə edin töhmət bu gündən içmişəm.

Gərçi bu söhbətlə iman əhlini mən çaş edib,
Söylərəm bunca yalan söhbət "bu gündən içmişəm."

Mehriyəm, yox xanədanımda şərabxor kəs olan,
İçdigim eşqdir, olun rahət bu gündən içmişəm.

Mərziyyə Nəcəfova

# Lütviyyə Əsgərzadə Poeziyasında Sözün Fəlsəfi Qüdrəti

Lütviyyə Əsgərzadə Poeziyasında Sözün Fəlsəfi Qüdrəti

Mərziyyə Nəcəfova

Qarşımda Lütviyyə Əsgərzadənmin kitabları var… Oxuyuram və oxuduqca düşünürəm ki, Lütviyyə Əsgərzadə ilə xeyli vaxtdır tanışam. Amma əslində, bu belə deyilmiş. Mən Lütviyyə Əsgərzadəni heç tanımamışam. Kitablarını oxuduqca onu tanımağa başlayıram və yeni bir Lütviyyə Əsgərzadə kəşf edirəm. Onun şeirləri haqqında fikir və düşüncələrimi qələmə almadan dayanamayacağımı hiss edirəm. Düzü bir az da qorxu və təlaş keçirirəm. Düşünürəm, görəsən bu qədər kədəri və qüssəni içində daşıyan, könlündə böyük kədərlə yaşıyan bir şairin poeziyasının ağır yükünü, ələmini yazmağa ürəyimin gücü çatacaqmı…

"Dünya başdan başa nağılmış demə…" adlı ilk kitabı qarşımdadır. Kitaba daxil etdiyi ilk şeir diqqətimi çəkdi. Allahla baş-başa qalan qəhrəman Allahla danışır. Özünü, yaşantılarını "bu il də çiçək açmayan ümid arzularını, toxum kimi səpdiyi arzularının cücərmədiyini" göz yaşları içərisində dilə gətirir. Göy guruldayır, şimşək çaxır. Buludlar göz yaşı tökür. Şair düşünür… Bəzən dərdlərini söylədiyi üçün peşiman olur. Bəlkədə Allah bəndəsinin çəkdiklərinə dözə bilməyib ağlamışdı. Bu qədər hüzün, kədərin olduğu şeirdə bir körpə səmimiyyəti də var. Təmiz və saf bir körpə səmimiyyəti.

Bəlkə də şeirlərindəki dünyaya sığamayıb şairin qəlbinə hakim kəsilən, onun dostuna, ən yaxın rəfiqəsinə çevrilən və bütün həyatı boyu şairi tək qoymayan bu böyük kədər elə onun qəlbinin təmizliyindən, dürüstlüyündən, uşaqcasına saflığından könlündə yuva qurub. Dərdi qəbul eləyib onunla yol getmək, gecəni onunla keçirib, sabahı onunla qarşılamaq könül evinin kərpicləri qəmlə hörülən Lütviyyə Əsgərzadənin şeirlərinin ana xəttidir. Qüssə, qəm, kədər və onlara yoldaş olan göz yaşı onun şeirlərinin özəyidir. Bu kədər əslində, hər kəsin yaşadığı ağrı, acıdır. Həyatımız boyu çəkdiklərimiz, itirdiklərimiz, sıxıntılarımız yaşadığımız xəyanət və s. içimizdən asılıb qalan kədərə çevrilir. İncə və kövrək ruhlu, şair qəlbli insanlar bunlara qatlaşa bilmir. Əslində, poeziya elə yanğıdır. Əgər bir ürəkdə yanğı, həsrət, qüssə kədər yoxdursa o misralarda səmimiyyət, poetik abu-hava olmur. Əsl şeir elə kədərdən yaranır. Lütviyyə xanımın şeirinin gücü elə onun şeirlərinin kədərdən doğmasıdır.

Şair özü demişkən kədərin nazını çəkir, onunla yoldaşlıq edir, sevməyə məcbur olduğu kədərin başına sığal çəkir. Ömrünə yağan yağışlar L. Əsgərzadənin gözlərinin bəbəyində yer edib özünə. Hər dəfə dolanda göz yaşları üzüm giləsi tək qapqara gözlərindən axaraq şeirlərinə, misralara süzülüb. Şeirlərində göylərə əl açan şairə, yerdə yeganə ümid yeri olan anası ilə də söhbət edir. Onun dizlərində təskinlik tapır. Bəzən keçmişə dönür, körpə bir uşaq olur, bu qızcığazı kədəri didib, parçalayır. O, istəyir ki, anası ondan bu kədərin səbəbini soruşsun. Ana isə heç nə soruşmasa da qızını duya bilir, onun gözlərindəki həsrəti, ağrını görə bilir. Qızının çəkdiklərində xəbərdar olan ana qızının saçlarına sığal çəkir." Danışma, qızım, dərdindən alışar ana ürəyim" –deyə başlayır nağıla; "Biri var idı, biri yox idi, dünyada gözəllər çox idi. Amma biri vardı ki, heç bəxti yox idi. Hər şeyi var idi, heç nəyi yox idi."

Söylənənlər ilk baxışdan ana ilə qızının söhbətini xatırlatsa da bu misraların arasında bir türk qadınının – ana ilə qız övladının yaşantılarını bütün tamlığıyla görmək olur. Analarımızın, qadınlarımızın illərlə əzilmələrini xatırlayırsan." Oxutmuram, əl, çəkin", "Xandostu, amandır, qoyma gəldi" kimi poetikləşmiş ifadələri xatırlayırsan. Onun sadə, səmimi dildə yazdığı bu poetik nümunələrdə əslində, elə fəlsəfi məqamlar açıqlanır ki, bu sadəlikdə böyüklüyün heyranı olursan. Xüsusilə, müəllifin "Qaranlığa söylədiklərim" adlı kitabına daxil etdiyi üçlüklərdə L.Əsgərzadənin bütöv iç dünyasının və sözün fəlsəfi qüdrətinin şahidi olursan.

Əslində, üçlüklər yenilikdir. Bu şeirlərdə üç misranın hökmünün şahidi oluruq. Hal hazırda bu nümunələr oxucu üçün daha çox sərfəlidir. Az sözlə cox şey ifadə etmək böyük səriştə tələb edir. Heç tərəddüd etmədən bu üçlüklərlə Lütviyyə xanım yaradıcılığının əsasını qoyub, deyə bilərik. Üç misradakı ideya, fəlsəfi düyum, kədər və həsrət oxucunu valeh edir. Oxucu yorulmadan, çox zaman itirmədən bir insan taleyini izləyir. Əslində, bəzən roman mövzusu ola biləcək bir mövzunu üç misrada ifadə etmək o qədər də asan bir iş deyil. Kitabın ilk səhifəsi müəllifin essesi ilə açılır. Essenin ideyası fikir burulğanında fəryad qoparan, dünyanın nizamsızlığı, insanın yaşantıları-kədər, nisgil, ağrı–acı və onlarla mübarizə aparan insandır. Şairənin kədərdən yoğrulmuş obrazı bu essede bütün tamlığıyla görünür. Geniş ürəyə malik insanın bu kədərlə necə yaşadığını, necə baş çıxara bildiyini düşünürsən. Bir xanımın bu qədər qəmi zərif çiyinlərinə yükləməsi oxucusunu ağrıdır. Qadın bu qədər kədərə necə dözür təkbaşına? Özünə sual verirsən. Və verdiyin sualın cavabını, əslində bildiyinin də fərqina varırsan. Fərqinə varırsan ki, əslində

şeirlərində Lütviyyə xanım Azərbaycan xanımlarının ümumiləşmiş obrazını yaradıb.

Boğacaq bir gün məni yaşadığım saray,

Sonra yığacaq başıma adam,

Ölən var, gəlin, çəkəcək haray.

Bu misralar mənə Məhsətini, Heyran xanımı, xan qızı Natəvanı, Gönçəbəyimi xatırladır. Bu saraylar əslində, bizim yaşamağımız üçün deyil, məhvimiz üçün ucalan saraylar olub.

Essedə kədərlə ümid paralellik təşkil edir. Düzdür ümid hər zaman ədəbiyyatımızın əbədi və əzəli mövzusu olub, lakin hər yaradıcıda insan ümidə özünəməxsus yanaşıb. Lütviyyə xanım da yaradıcılığında qəmin, kədərin, nisgilin şəklini çəkməklə yanaşı, ümidin də şəklini çəkə bilib; "İnsanı yaşadan ümiddir və hər kəs bunun şəklini bir şeylə çəkir; kimisi sözlə, kimisi fırça ilə, kimisi musiqinin dili ilə. Vay o gündən ki, insanın səbri kəsilə, ümidi itə, inamı azala, bütövlüyü sarsıla, dözümü yoxa çıxa, qəhəri bal yerinə uda bilməyə, fəlakət onda olur." Bu hal onun yaradıcılığında maraq doğuran hadisə kimi yadda qalır. Bu baxımdan müəllifin kədər, qəm dolu şeirləri nə qədər çoxdursa, hələ də ümid qığılcımı sönməyən şeirləri də var.

Bir gün bir azca xoşbəxtəm,

Lap bir azca bəxtəvər, dörd kitab müəllifiyəm,

Kim istəsə bu xoşbəxtlikdən pay ala bilər…

Nə qədər böyük ürəyə malikdir lirik qəhrəman… Bu qədər kədərin içərisində özünə bir dünya yarada bilən alim, yazar bu xoşbəxtliyini kimlərlə isə bölə bilir.

Və yaxud:

Üstümdə azdan – çoxdan, var nəyim,

Gözlərimdə yenə ələmim…

bir zərrə ümiddən asılıb

səslənirəm gecədən səhərə; salam səhərim.

Gecənin gətirdiyi kədər ümidsizlik yaratsa da, səhərin varlığı ümid gətirir. Şairənin kədər dolu gecələrdən sonra səhərə, doğan günəşə ümidi və salamı əskilmir, gecədən səhərə səslənr; salam səhərim!

Üçlük yazmaq, üç misrada fəlsəfi fikir söyləmək, oxucunu düşündürmək və bəzən geniş bir mövzunu üç misrada çatdıra bilmək şairdən güclü təfəkkür, sərrast nişançı olmasını tələb edir. "Qaranlığa söylədiklərim" kitabına yazılan "Ön söz" də yazılır: "Əsl poeziya nümunəsi olan və daha çox sərbəstlik duyulan üçlüklərdə ölçü gözlənilməməsinin diqqəti cəlb etməsi də məhz bununla bağlıdır. Onu da qeyd etmək lazımdır ki, ümumiyyətlə şairənin yaradıcılığında bu nümunələr əsas yer tutur və o, üçlüklərində öz ürək çırpıntılarının, duyğu və düşüncələrinin, hiss və həyəcanlarının, həyata baxışındakı özünəməxsus fərdiliklərini daha dolğun poetik rəsminə nail ola və müvəfəqiyyət qazana bilir;

Göydən od ələnir, çat veri torpaq,

İstidən saralır yaşıllıq, yarpaq,

Könlümə yağan qara bax….

Müəllifin yaratdığı lövhədə olan təzad ilk anda oxucuya adi görünür, vüsalına yetməyən aşiqin yaşadığı hisslərin etirafı təsiri bağışlayır. Eyni zamanda həyatın məhz iki qütüb üzərində qurulduğunu üç sətirlə, qısa və lakonik şəkildə ifadə etmək müəllifin sözün gücündən məharətlə istifadə etməsini göstərir." Müəllif ruhən ölən lirik qəhrəmanı anladır. Onu hər zaman cismin yox, ruhun ölməsi düşündürür.

Ölsəm, ağlamayın məni,

Ağlamışam o ki, var özümü,

Qoymamışam dincəlsin gözümü.

Bir çox üçlüklərində isə ruhunun dustaq olduğunu ağrıyla ifadə edir.

Sularda üzər sandal.

Biləkdən vurular qandal.

Ruhum dustaq…

Uzun zaman mənən dustaq olan və bu dustaqlıq həyatını akvariumda yaşamağa bənzədən, azad olduqdan sonra bir başqa həyata adaptasiya ola bilib-bilməyəcəyini düşünən lirik qəhrəman özünü susuz qalmış balığa bənzədir.

Çat verdi qəmlə doldurduğum akvaryum.

Mən onsuz neyləyəcəyəm?

Quruda yaşaya biləcəyəm?

L.Əsgərzadə yaradıcılığında diqqətimi çəkən nüanslardan biri də "gül" və "kül" mövzusudur. Şairə "gül" və "kül!" idiomatik ifadələrlə bəzən təzad yaradır. Sevdiyinin ona "gülüm", – deyə müraciət etdiyinə işarə vuraraq güllərinin xəşəm olmasını poetikləşdirir. "Gül"lə "kül"ü bir araya gətirərək ağrılı misralar yaradır:

Mənə gülüm deyənim, güllərim xəşəm oldu,

Od düşdü gülüzarıma gülün yanıb kül oldu.

Gül… kül..

Bəzənsə, "gülün" "kül" olmasında vəfasız aşiq qınağa çəkilir.

Gül idim,

Kül etdin.

Sovur başına..

Şairə üçlüklərində "qəmdən gülzarlıq salanın gülü bitməz, onu göz yaşıyla sularsan yazıq olar" – ifadəsinin sanki sözlə rəsmini çəkir. Gül"dən "kül"ə çevrilən lirik qəhrəman yazır:

Sənin də bildiyin bu üzüldükcə, üzürsən.

Külümə də od vurub yandırmaq istəyirsən.

Əvvəl gülü, indi külü sevirsən?

Lirik qəhrəman həsrət yollarında yanıb kül olduğunu söyləyərkən aşiqin bu ayrılığı saldığı üçün üzüldüyü də məlum olur. "Yanıb kül olmuş" qəlbindən sevgi, istək, dodağından gülüş qaçan "gül"ün halını poetikləşdirən şairə yazır:

Nə sevgi var, nə istək,

Nə dodağımda gülüş.

Könlüm yanıb kül olmuş.

Əslində, illər keçməsinə baxmayaraq lirik qəhrəman yaşadığı günləri ömürdən saymır. Ayrılıqdan sonra da o anlarda qalan qəhrəman "səndən sonra yaşamadım" ifadəsini sadə, səmimi hisslərlə poetkləşdir:

Amma səndən sonra nə böyüdüm,

Nə yaşadım.

Səndən ayrıldığım yaşdayam.

Sanki kədəri don tək əyninə geyinən, qəmi özünə kəfən biçən lirik qəhrəman heç cür xoşbəxt ola bilmir:

Səndən sonra ürəyim

Bəhanə gəzir ağlamağa,

Günlərim yaz buludlu.

Əslində, insan ya tam xoşbəxt, ya tamamılıə bədbəxt hiss etmir. Təbii ki, həyat davam edir və insan bir tək qarşı cinsə olan sevgiylə yaşamır. Dünyaya sevgi, Vətənə sevgi, doğmalara olan sevgi, peşəyə-sənətə, yaradıcılığa olan sevgi, təbiətə olan sevgi və s. insanı ruhlandırır, həyata bağlayır. Lakin xəyanət nə bağışlanır, nə də unudulur. İnsanda sağalmayan yara açır, insanlarda güvənsizlik, inamsızlıq yaradır. Bir tərəfdəndə də vəsiyyət yüngüllükdür, misalı sevdiyinə vəsiyyət edir:

Ömrüm boyu oxumaq istədiyin günlüyümü,

Vəsiyyət edəcəyəm versinlər sənə.

Sənə anlatacaq çox şeyim var.

Və yaxud;

Vəsiyyət edəcəyəm, versinlər sənə,

Ən çox sevdiyin yaylığımı, saçımı daradığım

darağımı, çox yaraşır dediyin bir paltarımı.

Lirik qəhrəman gözəl xatirələri, gözəl olan her şeyi verməklə qalmır, onun bəxş etdiyi "hədiyyələri" də ona verir.

Sənin olsun hər şeyim,

Onlara hopmuş hıçqırıqlarım, göz yaşlarım,

Qurutduğum güllərim, üstündə nisgillərim.

Ümumiyyətlə, L. Əsgərzadənin bu üçlüyündə bir ömürlük göz yaşıyla sulanmış, qurumuş güllərin üzərində-ki nisgillə ötən insan həyatı əks olunub. Bu ağrı, nisgil müəllifin "İçimdə hönkürdü dözüm" şeirlər kitabında da davam edir. Kitaba əsasən, heca vəznində yazılan şeirlər daxil edilsə də mövzu demək olarki, kədər, qüssə və iztirab üzərində köklənib:

Gözüm yol gözləyir, yəqin bilirsən,

Könlümün səsini yəqin duyursan.

Olur ki, ruhumu tükdən asırsan,

Ruhun diksinmirmi, darıxıram mən.

Əslində, təsvir edilən qəhrəmanların ayrıldıqlarını düşünmək də doğru deyil. Bu qəhrəmanlar bir-birinə ruhən bağlanan, bənd olan aşiqlərdi. Kitabın "Ön söz"ündə şeir təhlilə çəkilir: "Ruhlar haqqında çox sözlər deyilib, çox sözlər yazılıb, ancaq ruhun duyarlılığının bu qədər səmimi və dolğun, inadırıcı şəkildə ifadəsi Lütviyyə Əsgərzadəyə məxsusdur. Diksinmək sözünü tez-tez duyuruq, qəfil bir səsdən, qəfil bir hadisədən diksinmək… Amma biri üçün darıxan insanın darıxmasının digər bir insanın ruhunu diksindirə bilməsi… Düşünürəm ki, şairə "diksinmək" sözü ilə bu möcüzəni yarada bilib: – "Ruhun diksinmirmi?"

İnsanlar ruhən heç ayrılmayanda əlbəttə ki, sən yananda göynəltisini o da duyacaq, sən darıxanda o ruh da diskinəcək. Misralarında bu əbədi sevginin rəsmini çəkən lirik qəhrəman yazır:

İllər boyu məni sevən ürəyinin

İstisini, sevgisini, közünü,

Bütövlükdə özünü,

Məndə qoyub getdin….

Digər bir bənddə "tənhalığı kirpiyindən ayağınadək yaşayan qadının portreti"ni çəkmək istəyən şairə buna nail ola bilir, şeirlərində sevdalı günlərinin deyil, sevdalı ömrünün poetik dərkini oxucusuna çatdıra bilir.

Bir şer yazacağam,

sevdalı günlərimin

Yaddaşı boyda.

Bir rəsm çəkəcəyəm,

tənhalığı kirpiyindən

Ayağınadək yaşamış

qadın portreti olacaq.

Kitab boyu tənhalığı içində, mənəvi dünyasında yaşayan və yaşadan qadın obrazını görmək mümkündür.

Lütviyyə xanımın" Dünya başdan –başa nağılmış demə" adlanan üçüncü kitabının "Ön söz" yazan Vaqif Məmmədov şair, naşir, eyni zamanda bir elm adamıdır. Əslində müəllifin şerlərinin təhlilə ehtiyacı olmasa da Vaqif müəllim üçüncü kitabdakı şeirləri bir daha süzgəcdən keçirir. Bir həqiqəti yenə də oxucuya xatırlatmağa ehtiyac hiss

edir. “Dünyada sevginin qulu olmağı” arzulayan şairənin şeirlərini oxuduqca heç tərəddüd etmədən düşünürsən, “bəli, əbədi sevgi var. Olub və hər zaman olacaq. Və sevginin qulu olmaq istəyən, hər nə qədər acını, qüssəni, kədəri yaşasa da bu svginin qulu olmaqdan zövq alanlar da bu dünyada var və hər zaman da olacaqdır. Yəqin ki, elə Lütviyyə Əsgərzadənin poeziyasının yanğılı olma səbəbi budur.

Hər zaman düşəsən hicran oduna,
Səcdə eyləyəsən sevgi adına,
Ötüb keçənləri salıb yadına,
Olasan dünyada qulu sevginin.

Təbii ki, sevgiyə səcdə edən lirik qəhrəman onun yolunda Simruq quşu kimi, yanmaqdan qorxmur, usanmır. Əbədi sevgisindən “Səndən sonra” şeirində də bəhs edir lirik aşiq. Hətta öz sevgilisinin ayrılığından sonra dünyanın dar bir qəfəs, yaşamağın zülm olduğunu poetik hisslərələ dilə gətirir.

L.Əsgərzadənin dördüncü kitab “Mənə elə gəlir ki, yüz ildir sənsizəm” adlanır. Əvvəlki kitablardan fərqli olaraq şair bu kitaba daxil edilən şeirlərdə sevginin çoxşaxəliyindən bəhs edir. Şairə vətən, torpaq mövzularına da müraciət edərək sevginin palitrasını yaradır. Xüsusi ilə ”Vətən”, “Naxçıvanım”, “Kursant”, “Qaçqın qadın” və “Hey” başlıqlı şeirlər maraq doğurur və yadda qalır. Lütviyyə xanımın “Dünya” silsiləsində yaranan şeirləri daha fəlsəfi və heyrətləndiricidir.

Dünya zillət yeriymiş,
Yaman namərd şeyiiş,
Gələn qalmaz, gedən gəlməz,
Başdan –başa sirr imiş.

Kitabda yer alan şeirlərdə yenə də ana xətt” Mənə elə gəlir ki, yüz ildir sənsizəm” silsiləsidir. Bu silsilədən olan nümunələr kitabın sonunadək davam edir. Eyni adlı şeirdə həsrətin kulminasyasını görmək olur, desək heç də yanılmarıq. Şeir Nazim Hikmətin misralarına xitabən yaranmışdır.

Bürünüb sənsizliyə,
Sakitcə dayanıram
Mənə elə gəlir ki,
Həsrət və hicranının,
Yüz ildir qonağıyam.

Lirik qəhrəmanın “mənə elə gəlir ki”, – deməsinə baxmayaraq sevdiyinin onu unuda bilməməsinə böyük bir inamı var. Hətta buna əmindir. Bəlkə də bu əminlik və inam hissi bu şeirlərin əbədi və əzəli mövzusunun böyük sevgi olmasına təsir edən amillərdəndir. Bu əminlik son bənddə güclü ifadəsini tapır:

Mənə elə gəlir ki, yüz ildir
Ayrılmışam yanından.
Mənə elə gəlir ki, qayıdan tək
Sən də soruşacaqsan;
Yüz ildir, haradasan?!

“Bir dilim ay işığı” da Lütviyyə Əsgərzadə poeziyasının təsirli nümunələrindəndir. Oxuduqca özüm-özümə sual verirəm, niyə “bir dilim ay işığı”? Kitaba daxil olan şeirlərdən bu suala cavab almaq elə də çətin deyil. Lirik qəhrəmanın gecənin qaranlığında qarşısında enişli-yoxuşlu bir qaranlığa qərq olmuş yol var. Bu gecənin zülmətini yalnız ay işiqlandıra bilər. Bu qaranlıq yolda yalnız ürəyinin işığına ümid edib yola çıxan bu yolçu Allahdan aylı gecənin bol olmasını diləyir. Göy üzündə görünən “bir dilim ay işığı” lirik qəhrəmanın ürəyində bir dilim ümidə dönür. Və mənə elə gəlir ki, Lütviyyə poeziyası bir dünyalıq ruhunu bu bir dilim ay işığından alır. Mənə elə gəlir ki, bu bir dilim ay işığının saldığı işıq çox uzun zaman şairəmizin ürəyinə güc, sevgi və sevinc bəxş edəcək. Göylərindən Ay, yollarından Ay işığı kəm olmasın. Və mənə elə gəlir ki, hələ Lütviyyə Əsgərzadə poeziyasının sehrinə çox düşəcəyik… Nə yaxşı ki, bunu bizə özü pıçıldayır..

Qəlbimdə gələcəyə bir dilim ümid
Və şam tək yanan qəlbim.
İkimiz dərdləşirik,
İkimiz hər şey yaxşı olar
Bir-birimizə təsəlli veririk.
Gözəl sabahlar hələ qabaqda,
Deyirik…

Sakit, dilsiz, faqir kimi dünyaya gələn insan, get-gedə ciddiləşir, sərtləşir. Gətirdiyi də olur, itirdiyi də. Bildiyi də olur, bilmədiyi də. Güldüyü də olur, ağladığı da. Bəzən insanların laqeydliyindən üzülür insan, bəzən məsuliyyətsizliyindən. Bütün bunlar L.Əsgərzadə yaradıcılığında öz poetik əksini tapıb:

Bir gözəlin yanağında
Göz yaşları şırım açdı
Bir əl bildi, bir yaylıq, baş qarışıqdı…

## Əzizə Ağahüseynqızı

# Salam Şusam

Salam, dağlar gözəlim,
Mənim alınmaz  qalam.!
Neçə ildi dustaqda....
Düşməndə qalan balam.!

Qolları zindan altda,
Açarı neçə qatda,
Kövrək, qəmgin ovqatda,
Xəyala dalan şuşam.!

Ayrı düşdük...bu nə sirr?
Səndən ötdü bir nəsil,
İlbəil, fəsil- fəsil,
Çiçək tək solan şuşam...!!!

Bu nə həsrət, nə haldı?
Məğrur üzün bihaldı,
gəl görüşək vüsaldı,
sevincdən dolan şuşam.!

## Səlbi Baxış

# Ey Ana Vətən

Necə sən dözürsən ağrı-acına?
Qanına susayıb məkirli düşmən.
Torpağın nahaqdan boyanıb qana,
Sənə tamah salır hər yoldan ötən.
Qurbanın olduğum, ey ana Vətən!

Yer, göyü düşmənin alovu sarır,
Göz dikib sərvətə, varın aparır.
Dağların ah çəkir, şivən qoparır,
Bürüyüb aləmi qatı duman, çən.
Qurbanın olduğum, ey ana Vətən!

Erməni fitvasl olar nə qədər?
Yediyim, içdiyim olubdu zəhər.
Qaralar içində günəşli səhər,
Şəhidlər veririk ah günü-gündən.
Qurbanın olduğum, ey ana Vətən!

Halıma ağlasın, bu yağan yağış,
Anamın gözündə donubdu baxış.
Salıbdl üzünə qırışlar naxış,
Bülbüllər oxumur, gülsüzdü çəmən.
Qurbanın olduğum, ey ana Vətən!

İnanıb yer verdin keçirdin başa,
Dedin ki, mehriban qonşu tək yaşa.
Gəlmədi mənfurlar sülhə, barışa,
Düşmənin qan içən, o bir baş kəsən.
Qurbanın olduğum, ey ana Vətən!

Gözünü oyaram, tökərəm qanın,
Soyunu qurudub, alaram canın.
Gədaya əyilməz Azərbaycanın,
Səlbiyəm, Koroğlu nəvəsiyəm mən.
Qurbanın olduğum, ey ana Vətən!
.

## Elnaz Kərimilər

### Dəsmal Satan Balaca Oğlan

Bir aydır zehnim hər gecə mənim yaxamdan yapışıb deyir: Niyə almadın, neçə iydi məyə, axı nədən balaca oğlanın qəlbin qırdın?

“cinsi yaxşı deyil di,alıb atacaydım qalsın?” deyirəm.

“alacaydın” deyir.

ona deyirəm: Bir olsa alaram, alardım. Bir deyil, iki deyil, üç deyil hər addım başı adamın qabağın kəsirlər”sən Allah bunu al” deyirlər. Şəhərin hər tərəfindən yoxsulluq yağır, yalan yağır, zillət yağır. Adam eşiyə çıxır ürəyi açılsın, əksinə ürəyi tutulur. Acəb qəribə günə qaldıq! ondan sonra sən fikr eləmisən mən şah qızıyam?

- O uşaq idi.xətrinə dəyməməliydin. Gördün sənə necə şirin- şirin xala deyirdi?

-:Hə xala deməsi doğurdan da şirin idi amma düzün axtarsan o and içməsi xoşuma gəlmədi, kiçikli - böyüklü and içirlər, yalan danışırlar. Mən də hirslənirən, axı bu nə dəbdi? istədim bilsin ki pulu həməşə andınan qazanmaq olmaz.

- Çətinlik görməmisin. Qarnın heç vaxt ac qalmayıb ondan sonra and içsinlər, etkilənən varmı? Bu şəhərin gözləri kor, qulaqları kar, qəlbi daş olub. hər kəs təhcə özünü görür, özünü düşünür alacaydın.

“bir deyil, iki deyil, üç deyil.mən də şah qızı deyiləm” deyirəm. Bir ay öncəni xatırlayıram. Bir saatdan çoxdur Təbriz Şəhərinin bazarlarında paltolara baxıram amma hələ palto ala bilməmişəm, öz - özümə deyirəm: çox bahalıdır. elə bil bu ildə köhnə paltomu geyməliyəm.

yorğunam, acam, susuzam və evmizə qayıtmaq istəyirəm. birden - birə on yaxod onbir yaşda bir oğlan uşağı yolumu kəsir və “xala dəsmal istəyirsən?” deyir. soyuqdan qızarmış balaca əllərində alti dənə toz dəsmalı saxlayıbdır. “baxım görüm” deyirəm. o dər hal narıncı rəngdə olan dəsmalı mənə sarı tutur. onun rəngini sevməsəmdə alıb cinsinə baxıram. cinsi yaxşı deyil. dəsmalı balaca oğlana qaytarıram və “istəmirəm” deyirəm. “xala nəyə?” Deyir. ürəyimdə deyirəm: yorğunam kənar dur gedim. məni danlağa vermə. evimiz doludu bu kara gəlməyən dəsmallarla. bu dəfə də bunlarla evə qayıtsam anam mütləq məni boğacaqdı.

“xala sən Allah al” deyir.

itə dönürəm.

qaranlıq bir payız gecəsidir.

öz - özümə deyirəm: nədən zəngin bir şəhərin hər tərəfindən yoxsulluq, yalan və zillət yağır? haçan bu şəhərin üzünə günəş doğacaq? nə zaman? nə vaxt?!

## Nesrin Sipahi Kıratlı

### Seni Dinledim

Bir şiir gibi
bir kitap gibi
hiç usanmadan
okudum seni

bir şarkı gibi
bir ninni gibi
hiç sıkılmadan
dinledim seni

bir roman gibi
bir tarih gibi
yazdım ben seni

Bayram gecesi
ölüm bilmecesi
ayırdı bizi
sütten kesilmiş
bir bebek gibi
özledim seni
karları delen
kardelen gibi

ararım seni
Papatyam gibi
Koklarım seni
Son yaprakları

## Ramilə Əliyeva

# Vətən

Yenə kədərlidir, yenə qəmlidir,
Ruhumu titrədən bu anın, Vətən.
Həsrət qorxuludur, gözü nəmlidir
Yüksək zirvələrdə dumanın,Vətən.

Şəhid xəbəriylə açıldı səhər,
Yenəmi gözyaşı,yenəmi qəhər?
Yenə ölməzliyin kitabın yazdı,
Vətən sevdalısı olan şəhidlər.

Bir Vətən sevgisi ürəyimizdə,
Sanki bir məşəlli yoldu bu sevgi.
İsti otaqlardan, rahat yataqdan
Soyuq səngərlərə doldu bu sevgi.

Oğullar Vətənçün qurban getdilər,
Deməyin heç zaman öldü şəhidlər.
Uca bir millətin, yenilməz xalqın
Zəfər salnaməsi oldu şəhidlər.

Vətən, açılacaq nurlu sabahlar,
Kədər yox olacaq, bitəcək həsrət,
Müqəddəs  ruhların məskən saldığı
Torpaq gülüstana dönəcək, əlbət.

## Sona İntizar

# Lazım Mənə

Pis günü unudub, xoş arzularla,
Yaşaya bilməkçün lazımsan mənə.
Qaranlıq gecədə o xülyalarla,
Bacara bilməkçün lazımsan mənə.

Yenidən həyata gəlmək istərəm,
Doymamış həyatdan köçə bilmərəm,
Min kəz də doğulsam, səni gəzərəm,
Sevə bilmək üçün lazımsan mənə.

Çətindir tək-tənha qalmaq həyatda.
İnan, sənsiz heçdir nəfəs almaq da.
Yorğun yollar boyu addımlamaqda,
İrəliləmək üçün lazımsan mənə.

Ömrüm sona çatır, qonağa mən də,
Sənə möhtac qalıb ruhum, cismim də
Ölsəm, vuracaqdır qəlbim bil, səndə,
Səni duymaq üçün lazımsan mənə.

Unutma, gözlərim güldü səninlə,
Ağladı səninlə, güldü səninlə,
Ürəyim də vurur indi səninlə,
Diqqət et sözümə, sənli həyatdan,
Xəbər almaq üçün lazımsan mənə.

## Lütviyyə Əsgərzadə

# " Sözün Tərs Üzünü Naxışlayan Şairə" Təranə Arifqızı

Poeziya... Sirli-sehrli aləm... Yana-yana yaşayan, yaşaya-yaşaya yanan, həyatın, rənglərin, ən böyük rəssamın, Yaradanın bizə bəxş etdiyi təbiətin fəlsəfəsini anlayanların yolu bu sehirli aləmdən keçir. Yolu bu sehirli aləmdən keçənlər həm öz hiss və duyğularının, həm də fərdlərin tərcümanına çevrilir. Hiss və duyğuları misralara süzülür. Yeni şeirlər doğulur. Doğulan şeirlərdə sevgi-məhəbbətlə, kədər qəmlə, vüsal həsrətlə qolboyundur. Təranə Arifqızının şeirlərindəki kimi...

Təranə Arifqızı, "Mən şair olsaydım" (2010), "Nə qədər ki, insan var" (2011), "Sözün bayatı rəngi" (2020), "Qarabağda 44 gün" (2021) və "İçimdəki səs" (2021) adlı kitabların müəllifidir. Təranə xanım oxunan və təqdir edilən şairələrdəndir. Şeirləri, hekayələri, məqalələri Azərbaycanla yanaşı, Türkiyədə müxtəlif almanaxlarda, toplularda; "Türk ədəbiyyatı ", "Hecetaşları" və "Dergizan", İranda "Yeni qapı" elektron jurnallarında dərc olunub. Dövrü mətbuatda; "525-ci qəzet", "Ədalət" qazetlərində, "Nuhçıxan", "Kulis.az", "Yeni səs.", "Mustəqil.Az" və digər saytlarda mütəmadi dərc olunan şairə böyük oxucu sevgisi qazanıb. Mən Təranə xanımın nəşr olunan son kitabı- "İçimdəki səs" kitabı haqqında, o kitabda yer alan, oxucusunu həyatın dərinliklərinə götürən misralarından söz açmaq istərdim.

Şairənin həyatda sevincli günləri də olub, ağrıları da. Həyatda sevinc varsa kədər, sevgi varsa nifrət, gülüş varsa göz yaşı, dəm varsa qəm də var. Bəzən insan dəyişkən payız havası kimi, bir gündə bunların hamısını yaşaya bilir, ağladığı yerdə gülür, güldüyü yerdə ağlayır. Sevərkən özünü dünyanın ən xoşbəxti, ayrılarkən ən bədbəxti kimi hiss edir. Bütün bunlar təbii hisslərdir. Dünyada tam xoşbəxtliyi tapanlar çox azdır. Hər kəs ona düşən paydan gileylidir. Lakin poetik ruhlu insanların bir də öz dünyası var. Dərdli anlarında baş vurduğu, özünü ovudub, gözünü qurutduğu, girişi hər kəsə qapalı olan dünyası. Şöz adamlarının hər kəsə qapalı olan ikinci dünyalarındakı gəzişmələri, həsbi-halı, sevgisi, nifrəti, sevinci, güleyi, həsrəti, vüsalı misralara hoparaq "ruhun gəmisində dünyanın boz üzünə", "bir az da xoş üzünə" üzür, gah "bu sahildən o sahilə aparır", gah da "göyə çəkib, "yer üzündən qoparır", gah "dalğaların telindən tutub sürünür", gah da "suyun əlini sıxıb sakit görünür." Bu, şairənin ruhunun təlatümümü, yoxsa üsyanı!?

"Üzür ruhun gəmisi
dünyanın boş üzünə,
Qəddarlıqla yoğrulmuş
bir az da xoş üzünə...

Ruhumu bu sahildən
o sahilə aparır...
gah da ki, göyə çəkib
yer üzündən qoparır ...

Dalğaların telindən
tutub sürünürəm mən...
suyun əlini sıxıb
sakit görünürəm mən..." (İçimdəki səs).

Ancaq, hər şeyə rəğmən "dalğaların əlindən tutub sürünən, suyun əlini sıxıb sakit görünən, kimsəsiz adaların qovulmuş sakini olub üş nöqtədə yaşayan" şairə nidanın, hissin, həyacanın hakimidir. Ancaq içindəki yad səslər onu rahat buraxmır.

gah əllərimə toxunur.../ gülür, gülür... sonra da.../ tellərimə toxunur...,/ona bir şeylər deyir: -Deyir...yat...yat... oyanma.../məzardasan, ölüsən.../ nə fərqi? … ölməsən də.../ ağıllı bir dəlisən... (İçimdəki səs).

Ədəbiyyatımzda çox toxunulan "ağıllı dəli" məsələsinə şairə də toxunur. Təranə Arifqızı içindəki yad səslərdən diksinib ayılmasını o qədər poetik bir üslubda anladır ki...

"Diksinib ayılıram...
səs qırılır, tökülür...
sonra... sonra... anidən
səsin beli bükülür...

Ölür yad səslər məndə,
için-için qocalır...
məndən uzaq zamanda
doğma bir səs ucalır..." (İçimdəki səs).

Sözlə bu qədər poetikcəsinə davranan, sözü mənalan-

dıran Təranə xanımın istifadə etdiyi “səs qırılır, tökülür” vəya “səsin beli bükülür” ifadələri onun sözə aşinalığından xəbər verir. Bu şairənin xoşbəxtliyidi. Şəxsi həyatında tapa bilmədiklərini misralarda yaşayan şairə övladı yerinə qoyub şeirlərini. Kədərini də pıçıldayıb, sevincini də, misraları ağrı-açı ilə yükləyib incitdiyi də olub, sığal çəkdiyi də, ağladıb göz yaşını tökdüyü də olub, sarılıb öpdüyü də. Bu xoşbəxtliyi, sözlə danışmağı, sözlə sarılmağı ona Tanrı verib. 42 yaşında qardaş itkisi yaşayan şairə şeirlərimdə heç vaxt “Qardaş!!”,-deyə ağlamasa da, əslində “O” yazdıqlarının hamısında var. Yazdıqlarının hamısına az-da olsa; “Bir ovuc göz yaşıydın.../gözümdə tutammadım./ Yandı tökülən yeri,/içimdən atammadım”, - dediyi qardaş dərdi səpələnib:

Əlin dəstəkdə titrər,
kirpık nəmı qucaqlar.

Mənli olan zil səsın
sınar, bəmi quçaqlar.

Qor uçar, soba yanar,
gözün uçar dərinə…
Qəfil an yuxu gələr,
gözə ruhum görünər...(Sənsizlik)

Ruhunu görəcək qədər ikinci dünyasına hakim olan, itirdiyini andıqca “kirpiyi nəmi qucaqlayan” şairə onsuzluğun “yasına dəfn olunmağını” istər, ancaq bir şərti var; “Başqa kimsə gəlməsin ruhunun qapısına” (Sənsizlik).

Çox zaman “Sözün tərs üzünü naxışlayan” şairə, bəzən usanıb bezdiyini misralara pıçıldayır: “Elə usanmışam, elə bezmişəm sözün tərs üzünü naxışlamaqdan./ yollar da yorulub, gözünü döyür, əl çəkib yolçunu bağışlamaqdan...”

Yol və yolçu... Yol varsa yolçu da var. Yolun başı olum, sonu ölümdür. Lakin bu yolçu, canının yolun yarısında ondan ayrılması ilə barışa bilmir. Yol da artıq yolçunu bağışlamaqdan yorulub. Amma yolçu inadkardır, hələ də “bəlkə”lərə, gedəninin qayıdıb gəlməsinə, “əlinin xoş səs kimi yenidən üzünə dəyməsinə” gümanı, “bəlkə yolu düşər deyə, qapıya dəmir atdığı” var: “Bəlkə, yolun düşər deyə,/Qapıya dəmir atmışam” (Bəlkə).

Lakin şairə,”almadığı nəfəs kimi” qayıdıb gəlməsini istədiyi əzizi üçün “bəlkə yolu düşər deyə, qapıya dəmir atsa” da, əfsus ki, bu mümkün deyil. “Gedən gəlməz, ölən dönməz əcəb sirr.”

“Ürəyimdə tutdum dilək,
Əzrayılım qurdu kələk,
Şah damardan vurdu fələk,
Çəkilmiş bir ah kimiyəm…” (Çəkilmiş ah kimiyəm)

Zaman su kimi axıb gedir. Saniyələr dəqiqələri, dqiqələr saatı, saatlar günləri, günlər ayı qovalayır. Lakin hər saniyənin, hər anın, hər dəqiqənin, hər ayın-günün öz yaddaşı, öz xatirəsi, öz nağılı olur. Bu hər keçən günün xatirəsi, yaddaşı, nağılı, “sabahı gümanın qoynuna atıb, dünənki günündən nağıl çəkməyi“, sevdiyini “kirpiyinin ucuna alıb” “gözünün qəmli içində saxlamağı”, “Özünün yuxusu ərşə çəkilsə” də, “üçnöqtələr suala dönsə” də yaddaşındakı “O”nu “gözündə şirin-şirin yatırmağı” var:

“Bu gün dəftərlərim qapalı qalıb
üç nöqtə suala dönüb içimdə.
alıb kirpiyimin ucuna səni
saxladım gözümün qəmli içində.”

Şairənin yuxuları ərşə çəkilən “lirik mən”nin sevdiyini gözlərində yatırıb, divara, tavana baxmaqdan “gözünün naxışı fərşə çəkilib.” Nə yaşaya, nə də ölə bilir:

“Qanadsız sözümün ayaqları altındayam
Nə ölə bilirəm, nə də yaşaya...
Səssiz çığırıqların son qatındayam...
Nə ata bilirəm, nə də daşıya...”

Şairənin yorulmuş, usanmış lirik qəhrəmanı “Səssiz çığırıqların son qatındadır. Nə ata bilir, nə də daşıya” bilir... Nə ölə bilir, nə yaşaya bilir, “yuvasız quşlar özünü sərhəd dirəyinə çırpıb yuva axtardığı kimi, şairə də yenə hər kəsə qapalı olan iç dünyasına baş vurur. Bu dünyada “ağlının ucundan keçən, gözləri cənnət işıqlı insan ona baxır, baxır, gülümsəyir və qaçır içindən:

“Ürəyimin başına bir qılınc sancılan” lirik mən ağlının ucundan keçənləri, umu-küsüsünü, niyətini misralara pıçıldayır:

“Sən belə eləsən, günün bir günü
oğru tək asacam baxışlarımı..

Kəndir əvəzinə kirpiklərimlə
sıxacam sən dolu göz yaşlarımı…”

Şairənin söz icadı bitib tükənmir. Lirik mən “bir sabah qalxıb, yolu ayağına yığıb, ondan sevdiyini ayıran “xəstə şəhəri” “ümmanda boğub” ona gedəcək. Lakin “evədək gəlib qapını döymədən, yalnız pəncərədən sevdiyi üzə baxıb, qəlbində özünü yıxıb gedəcək:

“Sən belə eləsən, bir sabah qalxıb
Yolu ayağıma yığıb gələcəm...
Səni məndən edən xəstə şəhəri
Ümmanda məhv edib, boğub gələcəm..

Sən belə eləsən, evətək gəlib
Qapını döymədən çıxıb gedəcəm...
Baxıb pəncərədən sevdiyim üzə
Qəlbimdə özümü yıxıb gedəcəm…”

Şeirlərindəki hər misraya şairənin nəfəsi, ruhu hopub. Bu nəfəs, bu ruh isə şeirin ovqatından doğur. Əslində, Təranə xanım da şeirlərində “gülüşünün ələmiylə”, “taleyinin sələmiylə”, “ağrıların qələmiylə” öz şəklini çəkir. Bu zaman “Qış içində yaz ruhunu”, ”Qəm dolu avaz ruhunu”, “Hər kəlməni öz ruhunun” yarpağına bükür. “Oğurlanmış taleyinə yük olan qadın, misra-misra doğulsa da, şeir-şeir çökən qadın sözlə “öz şəklini” çəkir:

“Gülüşündə ələmiylə,
Taleyinin sələmiylə,
Ağrıların qələmiylə
Öz şəklini çəkən qadın.” (Öz şəklini çəkən qadın)

Təranə Arifqızının “İçimdəki səs” adlı şeirlər kitabındakı şeirləri özündən-özünə pıçıldadıqları, özünün-özünü ovutmasıdır. Lap Leskofçalı Qalibin dediyi kimi, “Durmayıb ney gibi inler gönlüm”, / Sonra da kendini dinler, gönlüm.”

Təranə Arifqızını təbrik edir, yaradıcılığında yeni uğurlar arzulayırıq.

## Zəhra Fərdi Muğanlu

## Alovlu Sevgi

bahar süzür yanaqlara yağış tutanda gözlərin
dil açdı gül qəzəllərim mənə çatanda sözlərin

səhər nəsim badəsi edəndə məst bülbülü
ürəkdə dalğalandırır alovlu sevgi izlərin

tufanda bir şərər mənəm günəşdən ilham almışam
alıbdı bağrına məni söz saray dənizlərin

yolunda intizar çəkən gözlərimə nağıl deyir
dağ bərəsində haylayıb ovçu gəzəndə düzlərin

hayanda bağrı qan edir,çərxi fələk gicəllənir
cənnəti rzvandı mənə ölüm çatanda dizlərin

Mələk İsmayıl

# Vətən

Azərbaycan,Azərbaycan,
Damarımda qanım Vətən.
Başın üstdən od ələnir,
Odlar yurdu canım Vətən.

Qara qızıl sərvətin var,
Dəyərin var,qiymətin var.
Möhür vurdun, qeyrətin var,
Şan-şöhrətim,şanım Vətən.

Səbrimizi daşdırdılar,
Həddimizi aşdırdılar.
Qəsdimizə hey durdular,
Yoxdur sənsiz anım Vətən.

İgidlərin nərildəyir,
Sözü bircə dəfə deyir.
Düşmənlərin boyun əyir,
Günəşim,sübh danım Vətən.

Yol açırsan Naxçıvana,
Doğma yurda- İrəvana.
Yayılırsan şirin cana,
Sabaha gümanım Vətən.

Düşmənlərin gözü sənsən,
Söbəti sən,sözü sənsən.
Ocağımın közü sənsən,
Sənsən din-imanım Vətən.

## Zərəngiz Dəmirçi Qayalı

# Salam Şuşam

Şuşam, sənə qonaq gəlim,
Arzum gözümdə qalmasın!
Həsrət gözlərim yol çəkir,
Bəs nisgilim azalmasın?

Gülünü şehli dərərəm,
Sinəmin üstə sərərəm,
Səhər tezdən su çilərəm,
Yollarında ”toz olmasın”!

Qarabağ tarlı-qavallı,
Gözəlləri tirmə şallı,
Şikəstəli, cah-calallı,
Coşan səsin, sozalmasın!

Molla Pənah, sədan gəlsin,
Xanqızı, öz anam gəlsin,
Seyid, Cabbar, ya Xan gəlsin:
“Aralıqda söz olmasın”!

Zərəngiz heyran halına,
Gül səpilib sağ-soluna,
Şeir qoşdum camalına,
Sevənlərin az olmasın!

**İlahə İbrahimifərd**

# Kənd

Tarixi köhnə kəndəm
Sehirli bir kəməndəm
Ətrafim qizil tarla
Yaşil yamaca bəndəm

Güllər açıb çəməndə
Hər nə desən var məndə
Çirağla axtarsanda
Tayim yoxdu yəməndə

Bir tərəfim bağ -bağat
Meyvələri salamat
Bizə qonaq olanda
Qəm-kədəri çölə at

Girəcəkdə arx axir
Sağim dağlara baxır
Solda balaca bir qiz
Telini çiçək taxir

Evlərim bəzən ziğdana
Suvanibdi goy liğdan
Əmi qocalıb amma
Duşməyibdi əyağdan

Divarlar yuvarlaqdi
Ayqi dolu alaqdi
Bağin divari yoxdu
Əgər vardi alçağdi

Hər yanda bitib lalə
Dağdan axir şəlalə
Bulaq suyun sərindi
İçi piyalə-piyalə

Dağin başi mehlidi
Xaş - xaş gülu keflidi
Yamacdaki tər güllər
Ləçəkləri şehlidi

Biçinçilər biçində
Atlar otlaq  içində
Gözəl təbiətimdə
Quşda var bildirçində

Nehrələr tiqildayir
Çəftələr çiqildayir
Simavarda süb-axşam
Qaynayır-piqildayir

Ördək əylənir göldə
Cücəlılərıdə çöldə
Qazlarda Haray salir
Qarda,Yağışda, seldə

Xoruz qardaş başda tac
Qabaqinda da omac
Toyuqu, cücəsidə
Heç vaqt qalmayirlar ac

Hər kəs bir işə baxir
Həyat qaynayır axir
Bu gözəl mənzərədə
Məgər kimsə darixir?

Nənə səbzi əkibdi
Təlisdən tor çəkibdi
Səbzi güvərməg üçün
Dibinə peyin tokübdi

Xala nehrə çalxayir
Yaği suda saxlayır
Gəlin qiz körpəsinə
Gözmuncuqu bağlayır

Bibilər çörək yapir
Aluv təndirdə çapir
Yoğrulmuş kundələr
Yerin təndirdə tapir

Yavaş, yavaş qün batir
Yoyux, cücələr yatır
Çoban qardaşla köpək
Sürilə kəndə çatır

Gecə qaranlıq çökür
Nənə qapıni bükür
Corab toxumaq üçün
Köhnə kanfani sükür

Günəş göydə doğmamış
Qan çanaqin boğmamiş
Cəvahir oyanibdi
Heç eləbil yatmamiş

Sərin yel yavaş əsir
Günəş göyə tələsir
Aşbaz başi cavahir
Yenə əriştə kəsir

Biri omac ovmaqda
Biri qoyun sağmaqda
Kənd  uşaqi yenədə
Qaçmaqda, oynamaqda

Kənd əhli kəndə vurğun
Kənd də yox kimsə yorğun
Ğazayaqi, göbələk
Baxmazlar solğun- solğun

Ağaclari peyvəndi
Kəm olmur çayi, qəndi
Kənd deyil məmləkətdir
Sevdi ilahə kəndi

## TÜRKAY Aylıq Ədəbiyyat Dərgisi . YIL FİHRİSTİ
### 01 Yanvar 2023-01 Dekabr 2023


Arazgül Rejepova /3/11 Qadın
Arzu Hüseyn /3/8 Taxdın İnadıma Kələpçələri, 11/8 İndi Həsrətinlə Nəfəs-Nəfəsəm
Arzu Tahirqızı /3/14 Sülh İstəyirəm
Aygün Rəhimli Akbaba 6/24 İl Önceye Məktub, 8/15 Can Qarapapaq, 10/ 3 Qarabağ
Aysen Akdemir /2/23 Gerçek Olan, 5/12 Gitme
Ayşe Hümeyra Kadıoğlu /8/ 4 Arafta Bekliyorum
Ayşe Ünüvar /7/5 Dağılmış Defter
Banu Musayeva /2/6 Ağrı Dağı, /12/ Sən, 8
Bənövşə Mahmudqızı /6/7 Rəsm, 8/ 9 Bir Bənövşə Vardı, 10/7 Mən də İnsanam
Bəsti Bərdəli /2/10 Ağlayır
Beylan Gözükara /5/17 Gözlerin Bakışı, 10/ 17 İhtiyacım Var
Dilan Keleş /8/ 3 Bir Bilsen, 10/ 8 Sebebi Sensin
Dilarə Adıgil /4/6 Gəncəyə Gedirəm, 6/4 Safurə Xanımın Poeziya Dünyası, 11/17 KeyQubad, Bərgüşad Mahalı və Bugünün Qubadlısı
Dilek Özyurt Eken /3/12 Mavi özgürlük
Elmira Mahalqızı /3/17 Şairin Məhəbbəti, 10/ 10 Ey Nurlu Şəhərim
Eluca Elatlı /3/15 Sənə Məhəbbətim Dənizlər Qədər, 6/11 Özünü Gətir 10/ 21 Böyükdüm,
Emine Savaş /1/24 Anlatır
Esmira Günəş /7/8 Məlhəm
Esmira Mahalqızı /7/14 Söz
Elnaz Kərimilər/12/16 Dəsmal Satan Balaca Oğlan, Əzizə Ağahüseynqızı Çıxıb Gedəsən, 2/11 Şeirim, /4 /11 Nə Vaxtdı, 7/7 Mən Şeir Deməyə Qaçıb Gəlmişəm, 9/6 Qoşulub Payıza /12/ Şusam, 14

Fatma Özger Bilgiç /1/11 Mecalim Kalmadı, 5/4 Yüreğimdesin Paşam, 8/ 10 Çok Şükür Allah'a
Go'zal Ismatova /4/9 İsyon, 7/18 İkki Begona,
Güllü Eldar Tomarlı /1/3 Kələğay
Gülnar Səma /2/12 Şuşa
Gülqədəm Mirzəzadə /1/23 Ali Baş Komandanım, 4/4 Bayraqlı Evlər
Gülxar /1/4 Gəlməz Oldu
Günel İsrailqızı /8/ 16 Qoy Vətən Fəxr Etsin
Qiymət Məhərrəmli /4/12 Gəl Gedək Qarabağa

Halise Tekbaş /2/16 Ben Ağıtlar Yaktım Geceler Sana, 5/22 Sönmez Ateşinle Yak Benliğimi 9/14 Yüzüm Seninle Güldü
Hayidə Buluki Özləm /10/ 5 Yoxla Məni
Hədiyyə Hacızadə /8/ 17 C. Cabbarlının "1905-ci İldə" Piyesində Erməni-Müsəlman Münasibəti
Hənifə Şəbnəm /2/ 3 Gecələr, 4/19 Qaldım
Həvva Nazim /7/23 Qələbələr Çala, 11/ 3 Ola bilməz
Hilal Otyakmaz /2/13 Empati Yapabilen İnsan-1-
İlahə Allahverdiyeva /3/20 Əsərləri ilə Fikir Dünyamızı Aydınladan Sənətkar
İlahə Bayundur /1/18 İnsanların Kadrin Bilin
İlahə İbrahimiférd/12/24 Kənd

İnci Okumuş /2/ 8 Her Gün Batımı Yüreğimi Yaktım, 5/11 Kahramansın Sen, 12/6 Bana Kaldı
Kadriye Kırdök /1/18 Coğrafya Kader Değildir, 5/14 Yeniden Başlamak, 7/ 4 Arafta Bekliyorum, 9/7 Mavi Çiçekli Nazilli Basması
Kazımova Kövsər /7/11 Hüseyn Cavidin "İblis", Höte'nin "Faust" Əsərlerində İblis Obrazının Təhlili
Lalə Nəcəfli /6/15 M. Süleymanlı Nəsrində Mifoloji Obrazların Tipologiyası
Lütviyyə Əsgərzadə /1/8 Xoş Gəldin, 2/4 Səslənirəm Gecədən Səhərə,3/3 Keçmiş Olsun Türkiyəm, /5/23 Gülün Gülə Bənzəmir, 7/20 Bu Gecə, 8/ 11 Mahire Nağıgızı Şiirinde Duyguların İfadesi ve Tabiatın Resmi, 11/ 12 Mərziyyə Nəcəfova ilə Söyləşi, 12/19 Sözün Tərs Üzünü Naxışlayan Şairə - Təranə Arifqızı
Mahirə Nağıqızı 1/4 Sənsən Mahirə Nağıqızı, 4/3 Salam Olsun, 6/3 Qurbanın Olum, 10/ 20 Sevərəm Ömrüm Boyu
Mariya Mercanka /1/21 Sevgi Zeetleri
Maşide Aydoğan Dinçer /2/17 Masadaki Sır, 5/6 Mavi Çiçekli Nazilli Basması, 7/10 Bizim Evin Halleri, 9/12 Köhne Bahçedeki Ses
Mələk İsmayıl /3/19 Ordumuz, 7/16 Həyat Niyə Beləsən Sən, 10 / 24 Ay Şuşa, Mələk İsmayıl/12/22, Vətən
Meryem Küçük /1/16 Âreş ve Yaşam Ereği, 9/20 Derin ve Karanlık, 11 / 16 Son Veda
Mərziyyə Sarvan /2/7 Ürəyimin Daş Yeri, 9/16 Əsgər Anasıyam Mən
Mərziyyə Səlahəddin /2/9 Ağlayır/ Əllərim Üşüyür, 10/ 6 Əllərin, Mərziyyə Nəcəfova /12/ 10, Lütviyyə Əsgərzadə Poeziyasında Sözün Fəlsəfi Qüdrəti
Mətanət Hüseynxanqızı /3/9 Mən İşığın Elçisiyəm,

9/19 Gəncləşir Dünya, 11/ 24 Çal Qopuzu
Minirə Dadaşqızı /4/15 Yaşa Müqəddəs Vətənim, 11/ 10 Mən Turan Sevdalıyam
Mirajan Kamçibekovna /12/7 Kelebek Hissi
Nailə Şahverdi /7/ 19 Ucalır Göylərdə Şanlı Bayrağın, 10/ 18 Yuxu Ver Mənə
Nazile Məmməd Zəfərli /3/10 Yarımçıq Xəyallar, 9/10 Şəhidinəm Azərbaycan
Nazira Boymurodova /6/23 Kara Gözlüm Nerdesin?, 11/23 Benimle Söyle /
Nazire Erbay /1/14 Camın Ardında Kalan Kelimeler, 6/12 Aşkın Sükût Hali Yahut Susmanın Alfabesi
Nəcibə İlkin 6/22 Şəhid Qoxuyur Payız, /9/4 Bu Gecə,
Necibe Taşkın Çetinkaya /1/5 Kardeşlik Kasidesi, 4/10 Gazel Ne Olur (Leb değmez), 6/20 Budur Yûnus
Nesrin Sipahi Kıratlı 6/10 Ben ve Deniz, 9/5 Yaralıyım, 12/16 Seni Dinledim
Nigâr Arif /5/5 Gedək Üzü Küləyə
Nurkan Gökdemir /2/14 Nazahsen, 6/6 Oysa Biz 9/13 Dost'a Giden
Pərvanə Zəngəzurlu /1/13 Sənin Nədən Xəbərin Var, 4/23 İncimə
Qiymət Məhərrəmli /4/12 Gəl Gedək Qarabağa
Ramilə Əliyeva /4/17 Ucal Azərbaycanım, 12/17 Vətən
Rânâ İslam Değirmenci /1/19 Yağmur, 2/18 Aşk Olsun, 6/ 8 Güle Meftûn Ademkızı, 9/3 Manzumeyi Aşk, 10/ 22 Gün Doğmadan Ay Balam -1-, 11/ 4 Gün Doğmadan Ay Balam -2-, /15/4 Gün Doğmadan Ay Balam -3-
Safurə Quliyeva /8/ 6 Nigar Rəfibəylinin Lirikası
Sahibə Yusif /4/21 Çevrilirsən Ülfətimə Sevgimə, 6/13 Sən Özünsə Bir Yana, 11/ 22 Xəyalın Gücü
Salidə Şəmmədqızı /1/9 "Wikipedia" Oyunu
Samirə Sahib /2/24 Biləydim
Səhər Xiyavi /10/ 4 Hörumçək Kişi
Səidə Əliyeva /3/22 Asta Çal, Qoy Pərvazlansın "Vağzalı", 5/10 Muğam Sehrində, 7/24 Vaxtında Tanı, 11 /20 Qəm İzi Var Gözlərində
Səlbi Baxış /4/18 Ana, /12/15 Ey Ana Vətən
Səringül Sadə /4/20 Ağlama Şəhid Anası, 7/22 Dilim Mənim
Səltənət Əliyeva /12/3, Sən
Sərvanə Dağtumas /5/18 Con Steynbekin "Xrızantemlər" Hekayəsı və Gender Bərabərlıyı, 7/15 Aqşin Xəyalın "Mənim Erməni Oğlum" Əsərində Ananın Mənəvi İztirabları, 11 / 21Qızıma "Nəsihətamiz" Məktub
Sevinc Azadlı /2/21 Payız, 10/ 19 Uşaq İllərim
Sevinc Həmzəyeva /4/22 Kövrək Xatirələrin Üstünə Getmə
Sıdıka Softa /5/13 Can Verin Sevgiliye
Sona Abbasəliqızı 1/7 Şuşa Mənim Şah Anam
Sona İntizar /3/13 Bir Qadın, 6/21 Dost Məktubu, 9/18 Dost Məktubu, /12/18, Lazım Mənə
Songül Özel /3/21 Azade
Sündüs Arslan Akça /2/20 Hüzün Toyu, 5/3 Sesin Kaynağı, 9/17 Hangi Eylül Öpecek Hüzünlü Gözlerinden, 11 / 7 Ey Masal Yorgunu
Şahnaz Şahin /2/22 Yaylıq, 5/16 Tablo, 7/6 Sən Gəldin, 11 / 6 Tökülür
Şəbnəm Tohidi /10/ 9 Sənətin Gücü, 11/ 15 Darıxan Qadın!
Şəhla Ramazanqızı /3/23 Ərköyün Təbəssümlü Ev
Şerife Sönmez /4/16 Kelebek ile Yağmur, 9/15 Memleketim, 11/11 Kelebek ile Yağmur
Tamam Yaralı /2/15 Dərdim Ürəyimdədi, 5/9 Dayağım Olursan, 7/3 Elnən Olan Dərd Deyil
Tamara Sadıq /3/26 Kəndimiz, 7/15 Boş Qalıp
Tayyib Atmaca /1/3 Yola Çıkarken
Təranə Arifqızı /6/14 Məni Tanıyırsanmı, 10/ 11 Lütviyyə Əsgərzadə ile Turan Sevdasını Üzerine, 11/ 9 Haqqını Halal Et Şəhidim
Təranə Əliyeva /3/7 Qadın, 9/21 Darıxır
Vüsalə Vətənxan Mehri /6/22 Onsuz Qaralır Dünyam
Vüsalə Vətənxan Mehri /12/9, İçmişəm,
Xalidə Hicran Seyidova /3/25 Hikmət Xəzinəsindən, 9/22Yarım Qalan Ömürlər
Xədicə Murad /2 19 Ziyarətim Pirimsən, 5/24 Bayatılar
Xəyalə Əliyeva /3/18 Sənin Tilsiminə Düşmüşəm Yenə
Yasemin Kuloğlu /9/23 Nar'a Yolcuyum
Zərəngiz Dəmirçi Qayalı 1/12 Burda Bir Payiz Var Mənə Bənzəyir, 4/5 Örnək 60 Yaşım, 7/21 Qələbə Köynəyi, /12/23, Salam Şuşam
Zeynep Sümer /7/17 Sebebi Sensin, 9/24 Şehidim
Zəhra Fərdi Muğanlu/12/21, Alovlu Sevgi
Ziba Sevindik Hüseynova /4/24 Qarabağ Azərbaycandır, 9/11 Azərbaycan-Türkiyə